Xalq qəzeti.- 2025.- 17 sentyabr, №198.- S.14.



# Üzeyir Hacıbəylinin elmi əsəri özbək dilində

**Daşkənddəki Yunus Rəcəbi adına Milli Musiqi Sənəti İnstitutunda dünya şöhrətli bəstəkar, Azərbaycan peşəkar musiqisinin banisi Üzeyir Hacıbəylinin 140 illiyi ərəfəsində Türk xalqlarının sevimli sənətkarının məşhur elmi əsərinin – “Azərbaycan xalq musiqisinin əsasları” kitabının özbək dilində nəşri oxuculara təqdim edilib.**



Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə hazırlanmış kitabın müzakirəsində ölkənin elm, mədəniyyət və incəsənət xadimləri, Azərbaycan diasporunun təmsilçiləri, institutun professor-müəllim heyəti, tələbələr, jurnalistlər iştirak ediblər. Mərasimi giriş sözü ilə açan ali məktəbin rektoru, professor Eldor Şermanov Türk xalqlarının musiqi sənətinin öyrənilməsi və inkişaf etdirilməsi üçün də qiymətli mənbə sayılan əsərin özbək dilində işıq üzü görməsini Turan sevdalısı olmuş bəstəkarın yubileyi, eləcə də xalqlarımızın mədəni əlaqələrinin genişlənməsinə layiqli töhfə olduğunu qeyd edib.

Ölkəmizin Özbəkistandakı səfirliyinin müşaviri Fariz Məmmədov bildirib ki, böyük Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı Üzeyir Hacıbəylinin anadan olmasının 140 illik yubileyinə həsr edilmiş kitab və onun təntənəli təqdimatı sənət korifeyinin milli musiqi mədəniyyətinin inkişafındakı müstəsna xidmətlərinin təbliği və gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli Üzeyir Hacıbəylinin çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyət, milli musiqi xəzinəsini nadir forma və janrlarla zənginləşdirən novator sənətkar olduğunu, təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının mədəniyyətinə böyük töhfələr verdiyini söyləyib.

Sonra institutun professoru Saibjon Beqmatov, dosentlər Bəxtiyar Aşurov, Şaxzoda Berdixanova, “Soqdiana” Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri, professor Firuza Abduraxmanova və başqaları təqdim edilən kitabı Azərbaycanın zəngin musiqi irsini ilk dəfə elmi şəkildə sistemləşdirən fundamental tədqiqat kimi dəyərləndiriblər.

Sonra institutun tələbələri Üzeyir Hacıbəylinin populyar əsərlərini və özbək musiqilərini səsləndiriblər.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***
***Daşkənd***